# Azərbaycan - Portuqaliya münasibətləri

**Qısa tarixi məlumat:**

Portuqaliya Azərbaycanın müstəqilliyini 07 yanvar 1992-ci il tarixində tanımışdır. İki ölkə arasında diplomatik əlaqələr 04 avqust 1992-ci ildə yaradılmışdır.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 21 dekabr 2012-ci il tarixli sərəncamına əsasən Azərbaycan Respublikasının Mərakeş Krallığındakı fövqəladə və səlahiyyətli səfiri Tarik İsmayıl oğlu Əliyev iqamətgahı Rabat şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Portuqaliya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin olunmuşdur. Səfir T.Əliyev 14 yanvar 2013-cü il tarixində etimadnaməsini Portuqaliya prezidenti A.K.Silvaya təqdim etmişdir.

**Yüksək səviyyəli qarşılıqlı səfərlər:**

**Dövlət başçıları:**

**02-03 dekabr 1996-cı il** - Ümummilli lider Heydər Əliyevin Lissabonda keçirilən ATƏT-in Zirvə görüşündə iştirak etmək üçün Portuqaliyaya səfəri.

**20-21 noyabr 2010-cu il** - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Lissabonda keçirilən NATO-nun zirvə toplantısında iştirak etmək üçün Portuqaliyaya səfəri.

**Nazirlər:**

**11-12 iyul 2001-ci il** - Portuqaliya Respublikasının Xarici İşlər naziri J. da Qamanın ölkəmizə səfəri.

**15 iyul 2010-cu il** - Portuqaliya Respublikasının Xarici İşlər naziri L.F.M.Amadunun ölkəmizə səfəri.

**20-21 noyabr 2010-cu il** - Azərbaycan Respublikasının Xarici İşlər naziri E.Məmmədyarovun Portuqaliyaya səfəri.

**27-29 iyun 2012-ci il** - Portuqaliya Respublikasının Xarici İşlər naziri P.Portaşın Azərbaycana səfəri.

**Parlamentlərarası əlaqələr:**

Milli Məclisdə Azərbaycan-Portuqaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupu mövcuddur, qrupun rəhbəri Rüfət Quliyevdir.

**Müqavilə-hüquq bazası:**

Azərbaycan Respublikası və Portuqaliya Respublikası arasında 2 sənəd imzalanmışdır.

***Son yenilənmə tarixi: 17.09.2014***